UOT 479

*G.Məmmədzadə*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: gulka1@live.ru*

# KÖRFƏZ MÜHARİBƏSİNİN TÜRKİYƏ ÜÇÜN NƏTİCƏLƏRİ

*Yaxın və Orta Şərqin siyasi həyatında mühüm dəyişiklərə gətirib çıxaran bir sıra hadisələr olmuşdur. Bunlar arasında ən mühümü 1990-1991-cı illərdə baş vermiş və sonrakı illərdə birsıra ağır nəticələrə və humanitar fəlakətlərə səbəb olan Körfəz müharibəsi olmuşdur. Məqalədə bu müharibəyə gətirib çıxaran amillər, İraqın təcavüzkar xarici siyasəti, münaqişənin region ölkələrinə, xüsusilə Türkiyəyə təsiri təhlil olunur. Həmçinin İraqa qarşı tətbiq olunan iqtisadi embarqonun Türkiyə iqtisadiyyatına təsiri qeyd edilir. Koalisiya qüvvələrinin İraqa qarşı hərbi əməliyyatlarına Türkiyənin logistik dəstək verməsi vurğulanır.*

*Türkiyə ilə İraq arasında mövcud siyasi və iqtisadi problemlər də böhranla əlaqədar gücləndi. İraqda kürd amilinə münasibətdə Türkiyə ilə yanaşı qonşu ölkələrin narahatlıqları da məqalədə öz əksini tapmışdır.*

*Məqalədə Körfəz müharibəsinə münasibətdə Türkiyənin siyasətini müəyyən edən bir sıra amillər də sadalanır. Bunların arasında neft amili mühüm yer tuturdu. Tranzit ticarətə xeyli ziyan dəydi. Yük nəqliyyatı ilə daşımaların həcmi aşağı düşdü. 2003-cü ildə ABŞ başda olmaqla beynəlxalq koalisiya qüvvələri tərəfindən İraqın işğalı Türkiyə üçün yenə də problemlər yaratdı. Ankaranın İraqa qarşı BMT sanksiyalarını müdafiə etməsi Türkiyənin xarici iqtisadi-ticarət əlaqələrinə mnfi təsir göstərdi.*

*Açar sözlər:* Körfəz müharibəsi, Küveytin ilhaqı, BMT sanksiyaları, neft amili

## *Giriş*

İraq 1990-cı il avqustun 2-də Küveyti işğal etməklə Yaxın və Orta Şərqdə yeni böhranın yaranmasına yol açdı. Bir müddətdən sonra İraq rəsmən Küveyti özünün 19-cu əyaləti elan etdi hərbi əməliyyata başlayaraq onu ilhaq etdi. Hadisələrin gedişini diqqətlə izləyən Türkiyə Körfəzdə böhranın başlanması ilə İraqa qarşı embarqonun tətbiqi haqqında BMT qətnamələrini tam dəstəklədi, bu ölkəyə münasibətdə ABŞ və Qərbi Avropa dövlətlərinin elan etdiyi sanksiyalara qoşuldu [1].

Nəhayət, Küveytin işğalı və ilhaqı ilə birlikdə həm Bəsrə körfəzində, həm də başlıca olaraq Orta Şərqdə qüvvələr nisbəti bir anda İraqın xeyrinə pozuldu. Belə bir vəziyyət həm neftin dünya bazarına ixracının təhlükəsizliyini, həm də ABŞ-ın və Qərb dövlətlərinin bölgədəki iqtisadi maraqlarını təhlükə altına qoydu [2, s. 71].

Hələ Küveytin işğalından əvvəl Bağdadın ilk iddiası 1990-cı il iyulun 16-da Ərəb ölkələri birliyinin Baş katibinə göndərdiyi məktubda öz əksini tapmışdı. Orada bir tərəfdən Küveytin 1980-ci ildən etibarən ona aid Əl-Rumeyla yataqlarında (mübahisəli bölgə hesab olunur) neft quyuları qazaraq neft çıxarması və digər tərəfdən neft istehsalını artırması yolu ilə qiymətlərin aşağı düşməsinə yol açaraq İraqı iqtisadi itkilərə məruz qoyması iddia olunurdu [3, s. 563].

Qeyd etmək lazımdır ki, böhranın ortaya çıxması əsas etibarilə İraq dövlət başçısı Səddam Hüseynin iyulun 17-də belə bir iddiası ilə başladı ki, Küveyt və BƏƏ normadan artıq neft istehsal edərək İraqı 14 milyard dollar zərərə məruz qoymuşlar. Xüsusilə İraq, Küveytin onun torpaqlarında neft quyuları qazaraq neftini oğurladığını iddia edirdi. Səddam bunların

müqabilində Küveytin 2,4 milyard dollar təzminat ödəməsini istəyirdi. İraq, eyni zamanda, iyulun ortalarından etibarən Küveytin sərhədinə qoşun yığmağa başladı. Əslində Bağdad hakimiyyətinin məqsədi İran-İraq müharibəsi zamanı əldə etdiyi dəstəyi fürsət bilərək Küveytin neft yataqlarını ələ keçirib bölgənin super gücünə çevrilmək idi. Belə bir şəraitdə o, haradasa dünya neft qiymətlərini təkbaşına müəyyən edə biləcək bir məqama çatacağını düşünürdü [4, s. 197].

Bağdad həmçinin bu yolla müharibə zamanı bu ölkələrə olan borcundan da qurtulmağı düşünürdü. Lakin 1990-cı il avqustun 6-da BMT Təhlükəsizlik Şurası İqtisadi qadağaları nəzərdə tutan 661 saylı qətnamə qəbul etdi. Türkiyə, bu qərardan bir gün sonra, avqustun 7-də Yumurtalıq boru xəttini bağladığını açıqladı.

Qeyd edək ki, hərbi münaqişəni tənzimləmək məqsədilə diplomatik cəhdlər müharibə gedişində həyata keçirildi. Bunlardan birincisi İİR prezidenti Haşimi-Rəfsəncani tərəfindən edildi. Lakin o, 1991-ci il fevralın 10-da bir açıqlama verərək Səddam Hüseynin buna müsbət cavab vermədiyini vurğuladı.

BMT Təhlükəsizlik Şurası, iqtisadi embarqonun tətbiqi prosesində qida qarşılığı yardım proqramı çərçivəsində 1995-ci il aprelin 14-də 986 saylı qərar qəbul etdi. Qərara əsasən "qida əvəzində neft" proqramını həyata keçirməyə başladılar. İraq xalqının humanitar ehtiyaclarını ödəmək məqsədilə onun 90 gündə 1 milyon dollarlıq neft ixrac etməsi, ancaq bunun əhəmiyyətli bir hissəsinin Kərkük-Yumurtalıq xəttilə həyata keçirilməsi və Türkiyənin də Birləşmiş Millətlərin xüsusi Komissiyasının nəzərdə tutduğu nisbətlərdə neft boru kəmərinin istifadəsi müqabilində neft almasına izin verilməsi nəzərdə tutulmuşdu.

*Müharibənin Türkiyənin daxili və xarici siyasətinə təsiri.* 90-cı illərin ikinci yarısında İraqa qarşı tətbiq olunan embarqodan İraq hökumətindən çox qonşu ölkələrin, o cümlədən Türkiyənin ziyan çəkməsi dünya ictimai rəyində xüsusi yer tuturdu. Körfəz böhranı tamamilə başqa bir şəraitdə başlamış və inkişaf etmişdi. Belə ki, ikiqütblü dünyanın bir sonu olaraq meydana gələn və soyuq müharibənin bir əlaməti olan Berlin divarının 1989-cu ildə yıxılması ilə birlikdə beynəlxalq əlaqələr yeni bir biçim almağa başlamışdı.

Türkiyə, İraqa qarşı Orta Şərqin digər ölkələrinin də qatıldığı, qərb dövlətlərinin təşkil etdiyi koalisiyaya dəstək verdi. O, "Səhrada tufan" əməliyyatı zamanı ərazilərini ABŞ-ın istifadəsi üçün açdı. Türkiyə, ildə 2,5 milyard dollarlıq bir ticarət həcminə sahib olduğu İraqa qarşı BMT-nin embarqo qərarına qoşuldu və bu zaman Kərkük-Yumurtalıq boru kəmərinin fəaliyyətini dayandırdı. Türkiyə özünün baza və qurğularını ABŞ və NATO-nun istifadəsinə verdi. Bunun müqabilində. Türkiyə, Körfəz böhranında maliyyə quruluşuna ziyan dəymiş az ölkələrdən biri oldu. İraqa tətbiq olunan və təxminən 13 il davam edən embarqo, Türkiyəyə ildə 2,5 milyard dollarlıq ziyan vurdu.

Türkiyənin belə bir mövqeyinin səbəbi, İraq tərəfindən Küveytin işğalı ilə bölgədə hegemon bir vəziyyətə yüksələrək başqa problemlərini də güc yolu ilə həll etmək qənaətində olmasından irəli gəlirdi. Səddamın qonşu ölkələrə münasibətdə təcavüzkar siyasəti və siyasi iddiaları Türkiyənin milli maraqları üçün təhlükə doğururdu. ABŞ və qərb ölkələrinin mövqeyində bölgədəki neft yataqlarının İraqın əlinə keçməsi, neftin təhlükəsiz və müntəzəm bir şəkildə Qərbə nəqlinin ləngiyəcəyi qorxusu mühüm rol oynayarkən, Türkiyənin narahatlığı bölgədəki sabitliyin Ankaraya qarşı pozulacağı qorxusu idi. Lakin böhrandan əvvəl su problemi ilə əlaqədar olaraq İraq ilə Türkiyə arasındakı əlaqələr gərginləşdi. İraqın bu problemi diplomatiya əvəzinə güc yolu ilə həll etmək istəyinin əlamətləri ortaya çıxdı.

Digər tərəfdən Türkiyə və Suriya arasında su məsələsində 1987-ci ildə protokol imzalanmasına baxmayaraq, bu sənəd üçtərəfli bir protokola çevrilə bilmədi. Xüsusilə də, 1990-cı ilin yanvar-fevral aylarında Atatürk su anbarı üçün suburaxma qaydası ilə əlaqədar

Türkiyə-Suriya-İraq əlaqələri daha da gərginləşdi. Bununla belə, Türkiyə 1990-1991-ci illər böhranı zamanı İraqın ərazi bütövlüyünün pozulmasına yönəlmiş cəhdlərə qarşı çıxdı.

Türkiyənin böhrana və sonrakı hadisələrə münasibəti bölgədə və İraqda onun əleyhinə durumun yaranmasına, bundan əlavə, onun müstəqilliyinə təsir edəcək bir vəziyyətin dəyişməsinə və ya ölkənin bütövlüyünü qorxu altına ala biləcək bir durumun ortaya çıxmasına qarşı siyasi bir iradə ortaya qoydu. O, belə bir çərçivədə BMT ilə əməkdaşlıq etməkdən çəkinməmişdir. Türkiyə bu anlamda İraqın tamamilə məğlub edilərək bölgədəki sabitliyin alt-üst olmasına da təmkinlə yanaşmışdı. Türkiyə bu siyasətini yeridərkən bir tərəfdən də böhrandan sonra Səddam Hüseyn tərəfindən təhlükəyə məruz qalan kürdlərə yardım əli uzadaraq qaçınları öz ərazisinə buraxmış və BMT tərəfindən təhlükəsiz bölgə yaradılmasını nəzərdə tutan 688 (1991) saylı qərarın qəbul edilməsinin təşəbbüsçüsü olmuşdur.

Nəhayət, böhran nəticəsində İraqın potensial bir qorxu ünsürü olduğu ortaya çıxdı. Körfəz müharibəsindən sonra Qərb üçün bölgədə blokadaya alınması lazım olan başqa bir dövlətin də olduğu aşkar edildi. Belə bir şəraitdə ABŞ hökuməti bölgəyə yönəlik yeni bir siyasəti, yəni İran və İraqın mühasirə edilməsini nəzərdə tutan "ikiqat mühasirə" (dual containtment) xəttini tətbiq etməyə başladı.

1992-ci ilin mayında keçirilən seçkilərdə İraqın şimalındakı kürd qruplarının öz yerli hakimiyyətlərini qurması, təbii olaraq Türkiyə tərəfinin bu qurumun bir dövlət halını alması və İraqın ərazi bütövlüyünün pozulması ilə əlaqədar narahatlığına səbəb oldu. Çünki, kürdlər artıq parlamenti, nazirlər kabineti və baş naziri olan bir hökumət qurmuşdular. Türkiyə bu hadisələri İraqın ərazi bütövlüyü baxımından təhlükəli bir proses kimi dəyərləndirdi. Bütün bunlarla əlaqədar olaraq, Suriya, İran və Türkiyə rəsmləri Ankarada toplaşnaraq İraqın ərazi bütövlüyünə təhlükə törədə biləcək bir siyasətə qarşı çıxdıqlarını rəsmən bəyan etdilər.

*Körfəz müharibəsinə münasibətdə Türkiyənin siyasəti.* Körfəz müharibəsinə münasibətdə Türkiyənin siyasətini bir sıra amillər müəyyən edirdi ki, bunlardan da ilk növbədə neft amilini qeyd etmək olar. Qeyd etmək lazımdır ki, hələ 1973-cü ilin neft böhranı Türkiyə iqtisadiyyatına ağır zərbə vurmuşdu. Bir il əvvəl neft üzərində dünya qiymətləri hər barelə görə 2,5-3 dollar olduğu halda, 1974-cü ildə 11-12 dollara yüksəldi.

Fasiləsiz neft idxalatının təmin edilməsi imkanlarını axtarmağa vadar olan Türkiyə, Mosul neftinin nəqli üçün neft kəmərinin tikintisi haqqında qonşu İraq ilə danışıqlara başladı (Kərkük şəhəri rayonundakı yataqlardan Türkiyənin Ceyhan neft terminalına və Yumurtalıq dəniz limanınadək). Buraxılıcılıq qabiliyyəti ildə 35 milyon ton olan Kərkük-Yumurtalıq neft kəməri 1977-ci ildə fəaliyyət göstərməyə başladı. Neft kəmərinin uzunluğu 986 km idi (641 km Türkiyə ərazisi ilə 345 km İraq ərazisi üzrə). Kərkük-Yumurtalıq neft kəmərinin tikintisindən sonra Türkiyə iqtisadiyyatında tədricən irəliləyişlər baş verdi. 1987-ci ildə İraqdan, praktiki olaraq birinci xəttə paralel olaraq neft kəmərinin ikinci qolu tikildi. Uzunluğu 890 km olan bu kəmərin 656 km-i Türkiyə ərazisi ilə, 234 km-i isə İraq ərazisi ilə keçirdi. Bu cəhətdən neft kəmərinin buraxıcılıq qabiliyyəti iki dəfə artdı.

Türkiyə, 1990-1991-ci illərdə Körfəz böhranı zamanı ABŞ-ın hərəkətlərinə tam dəstək verdi, BMT-nin sanksiyalarına qoşularaq, İraq neftini satın almaqdan imtina etdi və Kərkük-Yumurtalıq neft kəmərini (qoşa xəttin ikisini də) bağladı. Türkiyə iqtisadiyyatı nöqteyi-nəzərindən bu, görünməmiş bir addım idi. Bu qərarı qəbul etməkdən ötrü Turqut Özal hökuməti siyasi mülahizələri nəzərə alaraq uzun zaman tərəddüd etdi.

Qeyd edək ki, "soyuq müharibə" bitdikdən sonra beynəlxalq şərait dəyişdi. Beynəlxalq münasibətlərin yeni sistemi formalaşmağa başladı və Türkiyə rəhbərliyi də Qərbin gözündə ölkənin strateji əhəmiyyətini qoruyub saxlamağa çalışırdı. Ehtimala görə belə bir hal ABŞ ilə ticarət-iqtisadi münasibətlərdə imtiyazlar almağa imkan verər və Türkiyənin Avropa İttifaqına daxil olmasını asanlaşdırardı. Bundan əlavə, Türkiyə Yaxın Şərq arenasında aktiv oyunçu

olmağa və müharibədən sonrakı nizamasalmada iştirak etməyə çalışırdı. Bu sadalanan üstünlüklərdən əldə olunan uduş Türkiyəyə dəymiş iqtisadi ziyanı ödəməli idi. Bununla yanaşı, Türkiyə hökuməti ABŞ və Fars körfəzi ölkələrindən maliyyə yardımı alınmasını gözləyirdi.

Ancaq Türkiyənin siyasi və iqtisadi istəkləri özünü doğrultmadı, ölkə iqtisadiyyatına dəymiş ziyan isə bütün gözlənilənləri ötüb keçdi. Türkiyənin müxtəlif iqtisadi idarələrinin nümayəndələri bu məsələdə vahid fikir irəli sürmürdülər. Sanksiyalar və müharibə nəticəsində ölkəyə dəymiş ziyanın ümumi məbləği 40-100 milyard dollar təşkil etmişdi. Əgər belə bir fakta diqqət yetirsək ki, İraq ilə qonşuluq və sıx iqtisadi əlaqələr üzündən sanksiyalar nəticəsində Türkiyə ciddi zərər çəkmişdir. Türkiyə müxtəlif sahələrdə nəhəng itkilərə məruz qaldı, ən ciddi ziyan isə İraq neftindən imtina etməsi ilə əlaqədar idi.

Türk biznesinin İraqdakı fəaliyyətinə gəlincə, türk podratçı inşaat firmaları bağlanmış müqavilələr əsasında oradakı işlərini dayandırmağa məcbur olublar. Onların itkiləri, ilkin hesablamalara görə, 1991-ci ilin əvvəlində 700 milyon dollardan çox idi. Bundan əlavə, yüzlərlə türk işçisi və tikinti sahələrində çalışan texniki personalın nümayəndələri iş yerlərini itirdilər və əmanətlərini vətənlərinə köçürməyi dayandırdılar [1].

1996-cı ilin dekabrında BMT-nin “Ərzaq müqabilində neft” humanitar proqramı fəaliyyətə başladı. Bu, sanksiyaların nəticələrindən əziyyt çəkən İraq əhalisinin vəziyyətini yüngülləşdirmək məqsədilə təsis olunmuşdu. İraq, bu proqrama uyğun olaraq, məhdud miqdarda neft satmaq imkanı aldı, əldə edilmiş vəsaitin əsas hissəsini isə ərzaq və tibb ləvazimatlarının satın alınması üçün istifadə etdi. Maliyyələşmə mənbəyi ölkənin öz ehtiyatları olan, BMT-nin yeganə humanitar proqramı 7 ilə yaxın fəaliyyət göstərdi, demək olar ki, İraq əhalisinin 60 faizinin yaşayışını tam təmin etdi. Buna görə vəsait aşağıdakı qaydada bölüşdürüldü: neft satışından əldə edilən gəlirin 72 faizi bilavasitə humanitar ehtiyaclara sərf olundu, 25 faiz müharibədən sonrakı təzminatın ödənilməsinə, 2,2 faiz BMT-nin inzibati fəaliyyətinin, 0,8 faiz isə İraqın silah proqramının təftişinə sərf olundu (2003-cü il martın 17-də İraqda ABŞ-ın hərbi əməliyyatlarının başlanması ərəfəsində BMT Baş katibi təşkilatın nümayəndə heyətini İraqdan çıxardı, 2003-cü il noyabrın 21-də proqramın həyata keçirilməsi rəsmən dayandırıldı).

Türkiyə 1997-ci ildə BMT proqramına uyğun olaraq İraqdan 76 milyon dollar məbləğində neft idxal etdi. Bu ölkənin neft idxalının ümumi dəyərinin yalnız 2 faizini təşkil edirdi. Fars körfəzində müharibə başlayanadək, hər gün Türkiyəyə 700 min barrel neft verən Kərkük-Yumurtalıq neft kəməri müharibədən əvvəlki göstəricilərlə müqayisə edilməz dərəcədə məhdud həcmdə işləməyə başladı. Belə ki, 2000-ci ildə onunla bir gündə 285 min barel neft gəlirdi [5]. Bununla yanaşı, Türkiyənin cənub-şərq rayonlarının sakinləri üçün böyük əhəmiyyətə malik olan, İraqa ərzaq məhsullarının və sənaye mallarının ixracı bərpa olundu.

2000-ci ildə BMT Təhlükəsizlik Şurasının 1284 saylı qətnaməsi ilə İraq neftinin ixracatı üzərinə qoyulmuş məhdudiyyət ləğv olundu. Bu, ikitərəfli ticarət-iqtisadi münasibətlərin və yanacaq-energetika sahəsində əməkdaşlığın canlanmasına kömək etdi. 1994-cü ildən başlayaraq Türkiyə Neft Kompaniyası (TPAO) İraq neftinin axtarışı və çıxarılması məsələləri üzrə iraq hökuməti ilə danışıqlar apardı. 2001-ci ilin sonunda Kərkük rayonunda 20 quyunun qazılmasını nəzərdə tutan yeni layihənin həyata keçirilməsinə başlanıldı. Bu, Şimali İraq neft kompaniyası ilə Türkiyə beynəlxalq neft kompaniyası arasında razılığa uyğun olaraq həyata keçirilirdi. BMT tərəfindən bəyənilmiş layihə 2003-cü ilin əvvəllərində başa çatdı. Ancaq, ABŞ-ın İraqdakı hərbi əməliyyatları onun sonrakı inkişafını dayandırdı.

Burada Körfəz müharibəsindən sonra iki ölkə arasında qaz satışı sahəsində əlaqənin yaranmasını da xatırlamaq yerinə düşərdi. Yəni İraqdan Türkiyəyə qaz kəmərinin çəkilişi

layihəsini qeyd etmək lazımdır. Bu barədə 1996-cı il dekabrın 26-da Ankarada iki ölkənin təbii ehtiyatlar nazirləri tərəfindən çərçivə sazişi imzalanmışdı. İldə Türkiyəyə, oradan isə Avropaya 10 milyard kub metr təbii qazın göndərilməsi nəzərdə tutulmuşdu. Layihədə Türkiyə tərəfini "Botaş" (enerji daşıyıcılarının nəqli ilə məşğul olur), TPAO və "Tekfen" kompaniyaları təmsil edirdilər. Bu layihə də əvvəlcə BMT sanksiyaları, sonra isə İraqdakı müharibə səbəbindən həyata keçirilməmiş qaldı.

Sonuncu İraq böhranı ərəfəsində və dövründə Mosul nefti haqqında məsələ Türkiyə üçün açıq siyasi xarakter kəsb etdi və Türkiyə Respublikası rəhbərliyinin ABŞ-a münasibətdə tutacağı mövqeyin işlənib hazırlanmasında müəyyən rol oynadı.

2002-ci ilin payızında Türkiyə ilə ABŞ arasında, Birləşmiş Ştatların İraqda planlaşdırdığı hərbi əməliyyatlarla əlaqədar problemlər üzrə müntəzəm danışıqlar aparıldı. Müharibənin qaçılmaz olduğunu başa düşən Türkiyə rəhbərliyi, hadisələrin mümkün inkişafından özünün son dərəcə narahat olduğunu daima qeyd edir və daha əhəmiyyətli məsələlər üzrə təminat almağa çalışırdı ki, bunlardan da birinə mosul nefti aiddir. Şimali İraq kürdlərinin neft yataqları üzərinə nəzarətə iddiaları Türkiyəni həyəcanlandırırdı. Bunu əsaslandırmaq üçün kürdlər Mosul və Kərkükü ələ keçirməyə çalışırdılar. Dəfələrlə Türkiyənin mövqeyinin nəzərə alınacağını bildirən ABŞ nümayəndələri neft ilə əlaqədar da vəd verməli oldular.

ABŞ-ın Ankaradakı səfiri R.Pirson 2002-ci il oktyabrın 7-də Türkiyə XİN-ni əmin etdi ki, Kərkük neftinə kürdlər deyil, İraqın mərkəzi hökuməti sərəncam verəcəkdir. Oktyabrın 24-də ABŞ prezidenti C.Buş Türkiyə prezidenti Əhməd Sezər ilə telefon danışığında vəd verdi ki, hərbi əməliyyatlar kürd dövlətinin yaradılmasına gətirib çıxarmayacaq. Kərkük şəhəri və onun ətrafındakı neft yataqları kürdlərin nəzarəti altında olmayacaqdır.

Bununla belə, ABŞ Türkiyəyə öz vədlərinin sənədli təminatını vermədi və İraq kürdlərilə münasibətləri inkişaf etdirdi, S.Hüseyn rejimi ilə gözlənilən mübarizədə onları özünə müttəfiq görürdü. Buna görə də, Şimali İraq ilə əlaqədar məsələlər türk-amerika danışıqlarının gündəliyindən düşmədi və Türkiyədə geniş ictimai əks-səda doğuraraq türk mətbuatında müzakirələr üçün daimi mövzu oldu.

Bununla belə, 2003-cü ilin aprelində kürdlər Kərkükü ələ keçirməyə cəhd edən vaxt, türk hökuməti öz qoşunlarını yeridəcəyi ilə hədələyərək ABŞ-dan dərhal hadisələrə müdaxilə etməsini tələb etdi və ABŞ rəhbərliyi İraqın şimalında vəziyyətin normallaşdırılması üçün tədbirlər görməyə məcbur oldu.

Qeyd etmək lazımdır ki, 2003-cü ilin iyununda İraqda hərbi əməliyyat bitdikdən sonra Kərkük-Yumurtalıq neft kəməri üzrə neft nəqlinin bərpası planlaşdırılırdı, ancaq bir sıra təxribatlar nəticəsində bu plan iflasa uğradı. Neft ixracı yalnız avqustda bərpa olundu və qaz kəmərindəki yeni partlayışadək cəmi üç gün davam etdi. İraqın müvəqqəti inzibati idarəsinin başçısı P.Bremer İraqı yoxsulluqdan heç cürə çıxa bilməyən zəngin ölkə adlandırdı və neft kəmərindəki partlayışın İraqa hər gün 7 milyon dollar ziyan vuracağını bildirdi [6, s. 232].

Həqiqətən də, milli gəlirin 95 faizi ixracat gəlirlərindən ibarət olan İraq iqtisadiyyatının bərpa edilməsinin yeganə imkanı-neft ixracıdır. Neft kəmərlərinin mühafizəsi üçün Amerika komandanlığı tərəfindən xüsusi dəstələrin təşkil olunmasına baxmayaraq, aramsız təxribatlar onu sıradan çıxarır, bundan sonra isə təmir işlərinin aparılması üçüm uzun zaman tələb olunur. Belə bir vəziyyət Türkiyəni narahat edir, hansı ki, onun da xarici siyasətinin üstün istiqamətlərində biri fasiləsiz neft göndərişinin təmin olunmasıdır. Türkiyə, neft kəmərinin mühafizəsi üçün türk əsgərlərindən istifadə olunmasını ABŞ-a təklif etsə də, rədd cavabı aldı. Belə ki, amerikanlar, İraqın şimalında türk əsgərlərinin iştirakı əleyhinə etiraz edən kürdlərlə münasibətləri kəskinləşdirmək istəmədi.

İraqdakı qeyri-sabit şərait bir çox xarici firmaları qorxutsa da, türk kompaniyaları İraq ilə əməkdaşlığın inkişafına maraqlarını itirmədilər. Belə ki, hələ 2003-cü ilin aprelində TPAO və "Botaş" bildirdilər ki, müharibədən sonra yeni iraq rəhbərliyi ilə əvvəllər razılıq əldə olunmuş dörd layihənin həyata keçirilməsi haqqında danışıqlar aparmaq niyyətində olduqlarını bildirdilər. Üç layihə TPAO-nun yeni yataqların kəşfiyyatı və işlənib hazırlanmasında iştirakını, dördüncüsü isə Mənsuriyədən Türkiyəyə qaz kəmərinin çəkilişini nəzərdə tuturdu [7].

2003-cü ilin iyununda baş direktor Tupraş X.Danış İraq rəhbərliyinə təkliflə müraciət edərək İraqın neft emalı obyektlərinin bərpasına kömək göstərmək və oraya mütəxəssislər göndərmək niyyətində olduğunu bildirdi [8].

İki müharibə və onların arasındakı 10 ildən çox bir dövr ərzində BMT-nin sanksiyaları nəticəsində İraqın neft infrastrukturunu ağır vəziyyətə salmışdı. Amerika ordusu benzini Türkiyədən almağa məcbur olmuşdu.

2004-cü ilin dekabrında "Avrasya" türk kompaniyası Xurmalıda gündə 100 min barel həcmində neft çıxarılması və neft obyektlərinə texniki xidmət üzrə tenderi (140 milyon dollar dəyərində) uddu [9].

Qeyd etmək lazımdır ki, İraqdakı müharibə ilə əlaqədar neft üzərində dünya qiymətlərinin tez-tez tərəddüd etməsi bütövlükdə Türkiyə iqtisadiyyatına ağrılı təsir göstərmişdi. Beynəlxalq Valyuta Fondunun 2005-ci il üçün iqtisadi proqnozlarına görə, Türkiyə iqtisadiyyatı neftin qiymətlərinin artmasından daha çox əziyyət çəkən ölkələr sırasında çəkilir. Neftin bir barelinin dəyərinin 1 dollar artması Türkiyə üçün o deməkdir ki, onun idxalatı 178 milyon dollar bahalaşmışdır [10].

Türkiyə iqtisadiyyatı üçün Kərkük-Yumurtalıq neft kəmərinin tikintisi Türkiyə-İraq münasibətlərinin intensivləşməsinə kömək etdi və Türkiyə Respublikasının iqtisadi inkişafına əlavə təkan verdi ki, bunu da böyük uğur saymaq olar. Türkiyə bu layihə sayəsində güzəştli qiymətlərlə özünü neft göndərişi, həmçinin onun tranzitindən əldə olunan valyuta gəlirləri ilə təmin etmişdir. Neft kəməri İraqı Türkiyə üçün ən iri neft tədarükçüsünə çevirdi, 90-ci illərdə onun idxalatının 40 faizdən çoxu onun payına düşürdü. Belə bir halda İran-İraq müharibəsi dövründə Türkiyə idxal etdiyi neftin dəyərinin bir hissəsini İraqa ərzaq və sənaye malları göndərişi hesabına ödəyirdi.

Körfəz böhranı zamanı 1990-cı ildə İraq neft kəmərinin bağlanması nəticəsində Türkiyəyə dəymiş ziyanın miqyasını təsəvvürə gətirmək üçün Türkiyə Respublikası iqtisadiyyatının xam neft idxalından (90 faiz) asılılığının yüksək dərəcəsini qeyd etmək lazımdır. Buna görə neft idxalı ölkənin ümumi idxalatının 9 faizini təşkil edir və onun dəyəri ölkənin ümummilli məhsulunun 2 faizindən yüksəkdir [11, s. 65]. Özünün şəxsi neft ehtiyatları Şərqi Anadoluda cəmləşmişdir və olduqca dərin qatlarda yerləşdiyindən onun çıxarılmasını çətinləşdirir və onun dəyərini artırır. Türkiyədə istehlak olunan enerji ehtiyatlarının ümumi miqdarında neftin payına 39 faiz düşür. Türk iqtisadçılarının hesablamalarına görə Kərkük Yumurtalıq neft kəmərinin bağlanmasından Türkiyəyə dəyən ziyan 1991-1996-cı illərdə ildə 400 milyon dollar təşkil edirdi 1997-ci ildən etibarən isə, BMT-nin "Ərzaq əvəzinə neft" proqramı fəaliyyətə başlayan zaman və neft kəməri öz gücünün yarısı qədər işləyərkən, itkilər ildə 200 milyon dollar təşkil etdi [12, s. 618].

Qeyd edək ki, Fars körfəzində müharibədən əvvəl buraxıcılıq qabiliyyəti ildə 70,9 milyon tona çatan İraqdakı neft kəməri dünya səviyyəsindən aşağı fasiləsiz neft nəqlini və neft tranzitindən əldə olunan gəliri təmin edirdi.

Qeyd etmək lazımdır ki, 90-cı illərdə Türkiyənin neftə olan tələbatı 40 faiz artdı və ölkə istehlak olunan neftin miqdarına görə dünyada 24-cü yerə keçdi [11, s. 65]. Ölkə hökuməti,

Səudiyyə Ərəbistanı, İran, Liviya, Suriya, Əlcəzair, Misir, RF, Tunis və Qazaxıstandan neft ixrac etsə də İraq nefti ən əlverişli olaraq qalırdı.

*Nəticə*

Müasir dövrdə Türkiyə üçün İraq neftinin iqtisadi əhəmiyyəti bir qədər aşağı düşmüşdür. Bu, Kərkük-Yumurtalıq neft kəmərinin normal işinin təşkilindəki mürəkkəbliklə və daimi mövcud olan yeni təxribat riskləri ilə əlaqədar idi, həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı idi. Türkiyənin neft idxalatından asılılığı şübhə doğurmasa da, Kərkük nefti maya dəyərinin aşağı olması və yüksək keyfiyyəti ilə seçilirdi. Bu amil, Türkiyənin neft-qaz kompaniyalarının İraqın şimalında yeni layihələrin işlənib hazırlanmasını davam etdirmək səylərini və bu cür təşəbbüslərə dövlət dəstəyini müəyyən edəcəkdir.

Maraqlıdır ki, neft amilinin siyasiləşməsi Türkiyə üçün ağrılı olan kürd problemi ilə əlaqədardır. Bu amil, İraqın şimalında kürd muxtariyyatının yaradılması ilə son onilliklər daha da kəskinləşmişdir. Onlar tam müstəqilliyə can atdıqlarından, bu, Türkiyə kürdləri üçün nümunə ola bilərdi və terrorizmin artmasına rəvac verərdi. İraq ətrafında yaranmış sonuncu böhran gedişində ABŞ-ın İraq kürdləri ilə əməkdaşlığı, kürdlərin Mosul və Kərkükü nəzarətləri altına almalarına real zəmin yaratdı.

Türkiyə Respublikası üçün onun sərhədləri yaxınlığında gələcəkdə müstəqil kürd dövlətinin yaradılmasının öz-özlüyündə məqbul sayılmaması bir də onunla şərtlənir ki, bu dövlət Türkiyəyə iqtisadi təzyiq dəstəyi alacaq, PKK yaraqlıları isə öz fəaliyyətlərini maliyyələşdirmək üçün qüdrətli mənbə əldə edəcəklər. Türkiyə bu cür hala hətta İraqın ərazi və siyasi bütövlüyünün qorunub saxlanılması şəraitində belə yol verə bilməzdi və bu barədə özünün amerikalı həmkarına birmənalı qaydada bildirmişdi.

Türkiyə hökumətinin, ABŞ-ın hərbi əməliyyatlarda iştirak etmək təklifinə cavab olaraq irəli sürdüyü əsas tələblər sırasına Mosul və Kərkükün kürdlər tərəfindən ələ keçirilməsinə yol verməmək və İraqın şimalında vəziyyətə nəzarət etmək üçün Türkiyəyə icazə verilməsi. Həmçinin belə bir təminat verilməsi ki, İraqın təbii ehtiyatları (yəni nefti) hər hansı bir qrupa deyil, bütün İraq xalqına məxsusdur. Sabitliyi qoruyub saxlamaq və Türkiyə üçün arzuolunmaz hadisələrin qarşısını almaq üçün öz qoşunlarını İraqın şimalına yeritməsi üzrə Türkiyə Respublikası rəhbərliyinin planları aşağıdakı vəziyyətləri nəzərdə tuturdu ki, bunlar yaranan zaman türk əsgərləri döyüş əməliyyatlarında iştirak edə bilərdilər. Bu cür vəziyyətlərdən biri kürdlərin Mosul və Kərkükü ələ keçirmək cəhdləri hesab olunur.

Güman etmək olar ki. İraq nefti haqqında məsələnin siyasi aspekti Türkiyə Respublikası üçün öz aktuallığını uzun zaman saxlayacaqdır. Nə qədər ki, İraq uzun müddətdir ki, münaqişə zonası hesab olunur və onun parçalanması və kürdlərin dövlətinin yaradılması ehtimalı saxlanılır. Kürdlər isə bütün neft rayonlarının Kürdüstanın tərkibinə daxil edilməsi üçün bütün səylərini yönəldəcəklər. Bu cəhətdən, Türkiyə Respublikasının xarici siyasətinin ən mühüm tərkib hissəsinə çevrilən neft amili müasir dünyanın ən qeyri-sabit regionlarından birində əlavə gərginlik ocağı yaradır. ABŞ-ın Yaxın Şərqdə öz regional maraqlarının həyata keçirilməsinə yönəldilmiş aktiv siyasətini nəzərə almaqla, neft amili Türkiyə Respublikasının xarici siyasətindəki zəif həlqəni gücləndirir, belə ki, İraq nefti ABŞ və həmçinin digər ölkələr tərəfindən Türkiyə üzərinə həqiqi təzyiq vasitəsinə çevrilə bilər.

ƏDƏBİYYAT

1. Турция и война в Персидском заливе (операция «Буря в пустыне»)https:// bstudy. net /925662/politika/turtsiya_voyna_persidskom_zalive_operatsiya_burya_pustyne.
2. Tayyar Arı. İraq, İran ve ABD : Önleyici savaş, Petrol ve Hegemoniya. İstanbul, Alfa yayınları, 2004. 367 s.

3. Tayyar Arı. Geçmişden günümüze Orta Doğu. Siyaset, Savaş ve Diplomasi. İstanbul, Alfa, 2005. 624 s.
4. Steve A. Yetiv. "The Outcomes of Operations Desert Shield and Desert Storm: Some Antecedent Causes", Political Science Quarterly, Vol. 107, #2, (Summer 1992).
5. www.nethaber.com.tr. (2000).
6. Свистунова И.А. О роли нефтяного фактора в Иракском направлении внешней политики Турции //Востоковедный сборник. Вып.7, М., ИБВ, 2006, 490с. (с.226-236).
7. Milliyet qazetesi, 12.04.2003.
8. Milliyet, 02.06.2003.
9. Milliyet, 30.12.2004.
10. Milliyet, 24.08.2004.
11. Yıldırım S. Dünya ve Türkiyede petrol. Ankara, 2003. 362 s.
12. Özkan T. Bush ve Saddamın gölgesinde entrikalar savaşı. İstanbul, 2003. 691 s.

УДК 479

*Г.Мамедзаде*
*Бакинский Государственный Университет*

## ПОСЛЕДСТВИЯ ВОЙНЫ НА ПЕРСИДСКОМ ЗАЛИВЕ ДЛЯ ТУРЦИИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Война в Персидском заливе, аннексия Кувейта, санкции ООН, нефтяной фактор

Произошел ряд событий, которые привели к важным изменениям в политической жизни Ближнего и Среднего Востока. Наиболее важной из них была война в Персидском заливе, которая произошла в 1990-1991 гг. и повлекла за собой ряд серьезных последствий и гуманитарных катастроф в последующие годы. В статье анализируются факторы, приведшие к этой войне, агрессивная внешняя политика Ирака, влияние конфликта на страны региона, особенно на Турцию. Отмечается также влияние экономического эмбарго, введенного против Ирака, на турецкую экономику. Была подчеркнута материально-техническая поддержка военной операции коалиционных сил против Ирака со стороны Турции. .

Нынешние политические и экономические проблемы между Турцией и Ираком усугубились в результате кризиса. Что касается курдского фактора в Ираке, то в статье также отражены опасения Турции и соседних стран.

В статье также приводится ряд факторов, определяющих политику Турции в отношении войны в Персидском заливе. Среди них важное место занимал нефтяной фактор. Сильно пострадала транзитная торговля. Объем грузоперевозок сократился. В 2003 году вторжение в Ирак сил международной коалиции во главе с Соединенными Штатами вновь создало проблемы для Турции. Защита Анкарой санкций ООН против Ирака оказала негативное влияние на внешнеэкономические и торговые отношения Турции.

UDC 479

*G.Mammadzadeh*
*Baku State University*

RESULTS OF THE GULF WAR FOR TURKEY

*SUMMARY*

*Key words:* Gulf War, annexation of Kuwait, UN sanctions, oil factor

A series of events took place that led to important changes in the political life of the Near and Middle East. The most important of these was the war in the Persian Gulf, which took place in 1990-1991. And entailed a number of grave consequences and humanitarian disasters in subsequent years. The article analyzes the factors that led to this war, the aggressive foreign policy of Iraq, the impact of the conflict on the countries of the region, especially on Turkey. The impact of the economic embargo applied against Iraq on the Turkish economy is also noted. The material and technical support of the military operation of the coalition forces against Iraq by Turkey was emphasized. .

The current political and economic problems between Turkey and Iraq have been exacerbated by the crisis. Regarding the Kurdish factor in Iraq, the article also reflects the concerns of Turkey and neighboring countries.

The article also cites a number of factors that determine Turkey's policy towards the war in the Persian Gulf. Among them, the oil factor occupied an important place. Transit trade has been hit hard. The volume of cargo transportation has decreased. In 2003, the invasion of Iraq by the forces of the international coalition led by the United States again created problems for Turkey. Ankara's defense of UN sanctions against Iraq had a negative impact on Turkey's foreign economic and trade relations.

***Daxil oldu: 03.02.2023-cü il***